# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ ERMƏNİ VANDALİZMİ VƏ KƏHRİZLƏRİN BƏRPASI

**Əlövsət Quliyev**

*AR ETN Torpaqşünaslıq və Aqrokimya İnstitutu, Bakı*
*elovset_q@mail.ru*

Monitorinq dövründə tədqiqat işləri üçün Qarabağ müharibəsində ən çox döyüş əməliyyatı aparılmış Cəbrayıl rayonu ərazisi seçilmişdir. Bu ərazi 30 il erməni ordusu işğalında qalaraq viran edilmişdir. Cəbrayıl şəhəri, kəndləri tamam dağıdılmış, bütün infrastruktura ermənilər tərəfindən qonşu İranın alverçilərinə satılmışdır. Ərazidəki qəbirlər belə dağıdılmış, onların daşları da xaricə satılmışdır. Ərazinin çox hissəsi minalanmışdır. Müharibənin bitməsindən dörd ildən çox bir müddət keçməsinə baxmayaraq, hələ də mina təhlükəsi qalmaqdadır. Ötən illər ərzində 300 nəfərdən çox əhali bu təhlükə ilə rastlaşmış, həyatlarını itirmişlər.

Cəbrayıl rayonu ərazisindəki kəhrizlərin əksəriyyəti dağətəyi maili düzənliklərdə yayılmış gətirmə konuslarında olan yeraltı sular hesabına formalaşmışlar. Hesablamalarımıza görə ötən əsrin ortalarında Cəbrayıl rayonunda 111 kəhrizdən il ərzində 34 mln $m^3$ su içmək və suvarma üçün istifadə edilmişdir. Bu ərazilərdə yayılmış kəhriz sistemləri qidalanma xüsusiyyətlərinə görə aşağıdakı tiplərə bölünmüşdür:

- Dağətəyi ərazilərdə formalaşan yeraltı axınlardan qidalanan kəhrizlər.
- Çay dərələrinin daralmış en kəsiklərindən qidalanan kəhrizlər.
- Gətirmə konuslarından qidalanan kəhrizlər.

Cəbrayılın çox da kəskin olmayan kontinental iqlimi şəraitində məskunlaşmış əhali min illər ərzində öz tələbatını ödəmək üçün oturaq həyatının, daimi yaşayışının əsasını qoyan kəhriz sistemlərindən və bulaqlardan istifadə etmişdir. Apardığımız araşdırmalar onu göstərir ki, otuz il erməni işğalı altında qalmış kəhrizlərin bir qismi tamamilə dağılmış, bir qismi isə yarım fəaliyyətdədir. Hazırda istifadə edilən kəhriz suyunun miqdarı ötən əsrdəki (1938-ci ildəki) həcmin 15-20%-ni təşkil edir.

Cəbrayıl rayonu ərazisinin bir qismində apardığımız tədqiqatlar onu göstərdi ki, ötən müddət ərzində kəhrizlərimiz ermənilər tərəfindən tamamilə yararsız hala salınmışdır. Burada çay şəbəkəsi olmadığı üçün əhalinin içməli və təsərrüfat suyuna olan tələbatının ödənməsi ta qədimdən kəhriz və bulaqlardan, XX əsrin sonlarında isə bir qismi subartezian quyular tərəfindən təmin edilirdi.

Hazırda bəzi yerlərdə subartezian quyuları qazılmaqla bərabər kəhrizlərin bərpasına yer verilmişdir. İndi fəaliyyətdə olan kəhriz quyularının lağımlarının təmizlənməsi, onların uçub dağılmış yerlərinin bərpası, yeni texnologiyaların tətbiqi hesabına elmi araşdırmalara da önəm verməklə bəzi işlər görülməkdədir.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yayılmış kəhriz sistemlərinin iş prinsipi, quruluşu, konstruktiv elementləri, qidalanma mənbələrinə görə təsnifatı, kəhriz sistemləri kürələrinin zonalara ayrılması, onların istismar xüsusiyyətləri digər bölgələrdən kəskin fərqlidir. İstər coğrafi, istər geoloji və hidrogeoloji xüsusiyyətlərinə görə Cəbrayıl, Füzuli, Ağdam rayonları bir-birindən fərqli xüsusiyyətlərə malikdirlər. Yeni yanaşmalar əsasında tədqiqatlar elmi prinsiplər əsasında aparılmalıdır.

Aparılan monitorinq işləri onu göstərdi ki, Cəbrayıl rayonu Horovlu kəndində Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) tərəfindən "bərpa" olunan kəhrizlər tamamilə yanlış şəkildə həyata keçirilmişdir. Bərpa vaxtı heç bir normativ-hüquqi və texniki sənədlərdən, çertyojlardan, plan, profil və geodeziya əsaslı cizgilərdən istifadə olunmadığı üçün kəhrizlərin bərpa işi bir növ özfəaliyyət prinsiplərindən başqa bir iş deyildir. Hazırda əhali arasında kəhrizlərə aid kifayət qədər təcrübənin olmaması və ya görülən işlərin özfəaliyyət xarakterli olması bərpanın keyfiyyətsizliyinə səbəb olur, nəticədə kəhrizlər yarıtmaz vəziyyətə düşür, gələcəkdə bu abidələrin bərpası mümkünsüz olur.

Azərbaycanda kəhrizlərin potensial imkanları böyükdür və onları bərpa etmək vaxtı gəlib çatmışdır.

Belə nəticəyə gəlmək olar ki, müasir texnologiyanın məhsulu olan subartezian quyuları bəzi yerlərdə müəyyən üstünlük təşkil etsə də, Naxçıvan şəraitində kəhrizlər iqtisadi cəhətdən daha səmərəli bir hidrotexniki qurğudur. Buna görə də bu sahəyə diqqətin artırılması mövcud kəhrizlərin qorunması və yeni kəhrizlərin qazılması su qıtlığı probleminin həllinə aparan əsas yoldur.

Gələcəkdə kəhriz ətrafı ərazilərin ekoloji durumu qiymətləndiriləcək, eyni zamanda kəhriz suyundan istifadənin iqtisadi rentabelliyi müəyyən ediləcəkdir. Kəhriz suyundan dağətəyi zonalarda suvarma suyu kimi istifadə edilməsinə, torpaq münbitliyinin yaxşılaşdırılmasına xüsusi önəm veriləcəkdir.

Tədqiqatlar Qrant № AEF-MQM-QA-2-2023-3(45)-05/05/3-M-05 əsasında aparılmışdır.